**ABŞ tərəfindən mükafata layiq görülən Rüfət Səfərovun həbsi**

Dekabrın 3-də "Müdafiə Xətti" hüquq müdafiə təşkilatının icraçı direktoru, hüquq müdafiəçisi Rüfət Səfərov hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanılıb. [1]

O, Cinayət Məcəlləsinin 221.1 (xuliqanlıq), 178.3.2 (dələduzluq-külli miqdarda ziyan vurmaqla törədildikdə) və 127.2.3 (qəsdən sağlamlığa az ağır zərər vurma) maddələri ilə ittiham olunur və bu ittihamlarla onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Daxili İşlər Nazirliyi bildirib ki, torpaq alqı-satqısı ilə əlaqədar Rüfət Səfərovla bir nəfər arasında münaqişə baş verib və onun saxlanılması bununla bağlıdır.

Səfərov ittihamları uydurma və cəfəng adlandıraraq rədd edib, insan hüquqları sahəsindəki fəaliyyəti, ABŞ Dövlət katibinin "İnsan Hüquqları Müdafiəçisi Mükafatı"na layiq görülməsi və mükafatlandırma mərasimində iştirakının qarşısının alınması məqsədi ilə həbs edildiyini bildirib.

Dekabrın 10-da Beynəlxalq İnsan Haqları Günü münasibətilə ABŞ Dövlət Departamentində bir neçə ölkədən tanınmış insan hüqları müdafiəçilərinə Dövlət katibinin İnsan Hüquqları Müdafiəçisi Mükafatları təqdim olunub.[2]

Qaliblərdən biri Azərbaycan insan hüquqları müdafiəçisi, "Müdafiə Xətti" təşkilatının həmtəsisçisi Rüfət Səfərov olub. Bir həftə öncə bu tədbirə səfər məqsədilə viza almaq üçün Bakıdakı ABŞ səfirliyində görüşdən çıxdıqdan qısa müddət sonra saxlanılan və barəsində həbs qətimkan tədbiri seçilən Rüfət Səfərovun səhnədə mükafatçılar üçün ayrılmış yerdə oturacağının boş olması diqqət mərkəzində olub.

Alqışlarla müşaiyət edilən foto mərasiminin sonunda Antoni Blinken Rüfət Səfərova ayrılmış boş oturacağa yaxınlaşıb və onun mükafatı ilə bərabər xatirə şəkli çəkdirib.

Əvvəllər Zərdab Rayon Prokurorluğunun müstəntiqi olan Rüfət Səfərov 2015-ci ilin sonunda Azərbaycan hakimiyyətini insan haqlarının pozulmasında və ölkədə qanunsuzluqlarda ittiham etdikdən sonra istefaya çıxıb. O bundan sonra rüşvət almaq ittihamı ilə həbs edilib. 2016-cı ilin sentyabrında Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə 9 il müddətinə azadlıqdan məhrum edilib. Keçmiş müstəntiq ona qarşı irəli sürülən ittihamları rədd edib. O, 2019-cu ildə əfv sərəncamı ilə azadlığa çıxıb.[3]

2020-ci ilin iyulunda bir qrup hüquq müdafiəçisi tərəfindən "Müdafiə Xətti" hüquq müdafiə təşkilatı təsis edilib. Səfərov bu təşkilatın icraçı direktorudur.

**"Meydan TV"nin jurnalistlərinin həbsi**

Dekabrın 6-da Meydan TV-nin 6 əməkdaşı – Aynur Qənbərova (Elgünəş), Aysel Umudova, Aytac Əhmədova (Tapdıq), Xəyalə Ağayeva, Ramin Cəbrayılzadə (Deko) və Natiq Cavadlı,

[1] https://turan.az/en/politics/human-rights-defender-rufat-safarov-detained-787745
[2] https://turan.az/az/siyaset/blinken-rufet-seferovu-insan-huquqlari-sahesinde-ali-mukafatla-teltif-edib-ve-azerbaycani-haqsiz-yere-saxlanilanlari-azad-etmeye-cagirib
[3] https://report.az/daxili-siyaset/rufet-seferov-efv-edildi/

həmçinin vətəndaş cəmiyyətinin nümayəndəsi, Meydan TV ilə heç bir əlaqəsi olmayan Ülvi Tahirov və digər bir neçə şəxs saxlanılıb.

Saxlanılan digər şəxslər polis tərəfindən dindirildikdən sonra sərbəst buraxılsa da, yuxarıda adları qeyd olunan şəxslərə qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq, əvvəlcədən əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

Dekabrın 8-də isə bu maddə ilə onların hər birinin barəsində istintaq dövrü üçün 4 aylıq həbs qətimkan tədbiri seçilib.[4]

Saxlanılan jurnalistlərin evində axtarış aparılıb, telefonları, kompüterləri və digər şəxsi əşyaları götürülüb.

Həbs olunan jurnalistlər özlərini təqsirli bilmirlər.

Onların həbsi ilə bağlı yuxarı instansiya məhkəmələrinə müraciət edilsə də, məhkəmələr onları həbsdə saxlayıb.

Meydan TV əməkdaşları tənqidçi fəaliyyətlərinə görə cəzalandırıldıqlarını bəyan ediblər.[5]

"Meydan TV"-nin jurnalistləri ilə eyni vaxtda saxlanılan fotojurnalist Əhməd Muxtar isə dekabrın 8-də 20 sutka inzibati həbs cəzasına məhkum edilib.[6]

O, Azərbaycan İnzibati Xətalar Məcəlləsinin 510 (xırda xuliqanlıq) və 535.1-ci (polisə tabe olmamaq) maddələrilə təqsirli bilinib.

"Meydan TV" 2013-cü ildə yaradılıb və Azərbaycanda baş verən hadisələri tərəfsiz, obyektiv yayan media qurumu olduğunu bəyan edib.

Media müstəqil fəaliyyət göstərdiyi müddətdə zaman-zaman hakimiyyətin təzyiqləri ilə üzləşib.[7]

2015-ci ildə "Meydan TV" haqqında cinayət işi açılıb, əməkdaşı Şirin Tire (Abbasov) 30 sutka həbs olunub, kanalla əməkdaşlıq edən jurnalistlərin ölkədən çıxışına qadağa qoyulub.

Avropa Məhkəməsinin qərarı ilə hökumətin jurnalistlərə qoyduğu ölkədən çıxış qadağası qanunsuz sayıldığına görə Azərbaycan hökuməti 2019-cu ildə bu qadağanı aradan qaldırmağa məcbur olub.

2017-ci ildə ölkə ərazisində "Meydan TV"nin saytına blok qoyulub. Kanalın sosial şəbəkələrdəki hesabı dəfələrlə kiberhücuma məruz qalıb, materialları silinib.

2021-ci ildə OCCRP-nin yaydığı araşdırma zamanı məlum olub ki, hökumət İsrailin NSO şirkətinin hazırladığış Pgasus casus proqramı vasitəsiə kanalla əməkdaşlıq edən şəxslərin telefon nömrələrini dinləyib.

Son 13 ay ərzində Azərbaycanda 25-ə yaxın jurnalist həbs olunub.

---

[4] https://turan.az/en/politics/the-court-has-begun-to-consider-cases-on-the-arrest-of-meydan-tv-journalists-787933
[5] https://www.meydan.tv/en/article/meydan-tvs-statement-regarding-latest-arrests-of-journalists/
[6] https://turan.az/en/politics/photo-reporter-ahmed-mukhtar-arrested-for-20-days-787956
[7] https://turan.az/en/social/journalists-collaborating-with-meydantv-summoned-to-mdcoc-again-updated

“AbzasMedia”nın, “Toplum” TV-nin əməkdaşlarının həbsindən sonra “Meydan” TV-nin əməkdaşlarının həbsləri Azərbaycanda müstəqil və tənqidi mediaya qarşı hakimiyyətin repressiya siyasətinin daha da artdığını göstərir. Hakimiyyət əvvəllər jurnalistlərin həbsini tək-tək həyata keçirirdisə, bu dəfə - 13 ayda həyata keçirdiyi həbsləri qrup şəklində həyata keçirir. Bu da hakimiyyətin repressiyaya məruz qoyduğu media orqanlarının tamamilə sıradan çıxarılmasına hesablanıb. Hakimiyyət bununla da ölkədə tənqidi səslərin eşitmək istəmədiyini nümayiş etdirmək istəyir.

Hakimiyyətə yaxın media orqanlarında isə həbsdə olunan jurnalistlərin əleyhinə qarayaxma kampaniyası aparılır və həmin qarayaxma kampaniyasında istintaqın ötürdüyü məlumatlardan da istifadə edilir.

**Müstəqil siyasətçi Azər Qasımlının həbsi**

Dekabrın 8-də Siyasi Menecment İnstitutunun rəhbəri Azər Qasımlı polislər tərəfindən saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 182.2.3-cü (Hədə-qorxu ilə tələb etmə, zor tətbiq etmə ilə törədildikdə) maddəsilə ilə ittiham irəli sürülüb və dekabrın 10-da isə onun barəsində məhkəmə qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib.[8]

“Azər Qasımlıya borclu olan bir şəxs var. Məhkəmələri Qasımlı udmuşdu. İndi həmin adamı çağırıblar, guya Azər Qasımlı ondan hədə-qorxu ilə pul tələb edib”, vəkil Aqil Layıc yerli mediyaya deyib.

Azər Qasımlı ittihamı qəbul etmir və məhkəmədə saxlanılmasının ictimai-siyasi fəaliyyəti ilə bağlı olduğunu bildirib.

Noyabrın 22-də Azər Qasımlı ölkədən çıxamaq istəyərkən Bakı Beynəlxalq Aerportunda ona bildirilib ki, onun ölkədən çıxışına qadağa qoyulub.

O, noyabrın 22-də Çexiyanın paytaxtı Praqaya, oradan da Berlinə səfər etməyi planlaşdırırmış. Bakı Beynəlxalq Aereportunun pasport nəzarətində ona deyiblər ki, Daxili İşlər Nazirliyi onun ölkədən çıxışıma qadağa qoyub.

“Hesab edirəm ki, bu qadağa siyasi qərardır və hakimiyyətin siyasətini tənqid etdiyimə görə mənə qarşı təzyiqdir. Bu qadağa qeyri-qanunidir və yalnız şərləmə əsasında qoyula bilər”, o yerli mediaya bildirmişdi.

Noyabrın 25-də Azər Qasımlı Bakı şəhər Baş Polis İdarəsinə çağırılıb və orada şahid qismində dindirilib. O, üç saat yarımdan sonra sərbəst buraxılıb.[9]

Azər Qasımlı bir cinayət işi üzrə şahid qismində dindirildiyini bildirib və yazılı iltizam verdiyinə görə hansı cinayət işindən söhbət getdiyini deməyib.

O, istintaqda rəhbərlik etdiyi Siyasi Menecment İnstitutunun fəaliyyəti barədə də xeyli suallar verildiyini deyib.

---

[8] https://turan.az/en/politics/arrested-azer-gasimli-787991
[9] https://turan.az/en/politics/azer-gasymly-summoned-to-capitals-police-station-787411

Azər Qasımlı 29 sentyabr 2016-cı ildə konfransda iştirak etmək məqsədilə Böyük Kəsik sərhəd postundan Gürcüstana getmək istəyərkən sərhədçilər ona Baş Prokurorluq tərəfindən ölkədən çıxışına qadağa qoyulduğunu bildiriblər.

A. Qasımlı 29 sentyabr 2016-cı il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğu Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq idarəsinə müraciət edərək ölkədən çıxışına qadağa qoyulması üçün heç bir hüquqi əsasın olmadığını və bu qadağanın təxirəsalınmadan götürülməsini tələb etsə də, ölkədən çıxışına məhdudiyyət götürülməyib.

O, 7 mart 2017-ci ildə qeyd olunan məsələ ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edib. Məhkəmə 13 dekabr 2018-ci ildə şikayəti təmin edib. Azərbaycan hökuməti bu qərardan şikayət verməyib və 13 mart 2019-cu ildə Avropa məhkəməsinin qərarı qüvvəyə minib.

2019-cu ildə Azər Qasımlının ölkədən çıxışına qoyulan qadağa götürülüb.

**İctimai fəal 3 il azadlıqdan məhrum edildi**

Dekabrın 12-də Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində ictimai fəal İlhamiz Quliyev 3 il azadlıqdan məhrum edilib.[10]

Məhkəmə ona qarşı irəli sürülmüş Cinayət Məcəlləsinin 234.4.3-cü (külli miqdarda satış məqsədi ilə narkotik vasitələrin qanunsuz dövriyyəsi) maddəsini 234.1-1-ci (satış məqsədi olmadan qanunsuz olaraq külli miqdarda narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə, saxlama, istehsal etmə, emal etmə, daşıma) ) maddəsi ilə tövsif edib.

Məhkəmədə ictimai fəal İlhamiz Quliyev bir daha özünü təqsirli bilmədiyini, həbsinin səbəbini "Abzas Media"ya verdiyi müsahibə ilə əlaqəli olduğunu bildirib. Həbsini sifarişli adlandırıb.

Dövlət ittihamçısı çıxışında İlhamiz Quliyevin 7 il müddətinə azadlıqdan məhrum olunmasını istəmişdi.

İlhamiz Quliyev 2023-cü il dekabrın 4-də həbs olunub və Cinayət Məcəlləsinin 234.4.3-cü (Kütləvi şəkildə narkotik vasitələri hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddəsi ilə ittiham olunub.

Yaxınlarının sözlərinə görə o, saxlanılarkən zorakılığa məruz qalıb. Hüquq müdafiəçilərinin fikrincə, həbsin səbəbi Quliyevin "Abzas Media"ya verdiyi müsahibədir. O, siyasi fəalları təqib etmək üçün polisin "sənədləşdirilməmiş narkotik maddələrdən" istifadə etməsindən danışıb.

ABŞ və Avropa dövlətləri və orada yerlənən insan hüquqları təşkilatları Azərbaycandakı siyasi motivli həbsləri qınayan və siyasi məhbusların azadlığa buraxılmasını istəyən bəyanatlar versə də, Azərbaycan hakimiyyəti bu bəyanatlara məhəl qoymur, əksinə hakimiyyətə yaxın şəxslər və media Azərbaycanda siyasi motivli həbslərin olmadığını və bu kimi bəyanatların Azərbaycanın daxili işlərinə qarışma olduğunu deyirlər.

Azərbaycan yerli ictimaiyyətində belə bir fikir formalaşıb ki, ABŞ və Avropa insan haqları ilə bağlı Azərbaycan hakimiyyətinə qarşı yetərli qədər təzyiqlər etmir, ancaq bəyanatlarla

[10] https://turan.az/en/politics/ilhamiz-guliyev-sentenced-to-three-years-in-prison-788115

kifayətlərnir. Bu isə Azərbaycan hakimiyyətini narahat etmir. Yerli ictimai fəallar hesab edir ki, ABŞ və Avropa qonşu Gürcüstanla müqayisədə insan haqları mövzusunda Azərbaycan hakimiyyətinə yetərli qədər təzyiq etmir.